# THE ACTIVITIES OF IRAVAN TEACHERS' SEMINARY AND ITS CONTRIBUTIONS TO AZERBAIJAN EDUCATION

**Intigam Jabrayilov**

Institute of Education of the Republic of Azerbaijan
Head of the Department of Theory and History of Education,
doctor of pedagogical sciences, professor
E-mail:intiqamcebrayılov@gmail.com
https://orcid.org/0000-0003-2437-5926

**Abstract.** The article analyzes the historical conditions under which the Iravan Teachers' Seminary was established. The establishment of the seminary, its activities, its place, and its role in the educational history of Azerbaijan are discussed. Based on scientific research and sources, the content of education in the seminary, the activities of Azerbaijani teachers, the participation of students in the educational process, and the work they do in the educational direction are reported. The Iravan Teachers' Seminary, established in the second half of the 19th century, played a major role in the development of education in this region. Graduates of the seminary were intellectuals with a broad outlook who taught in primary schools in various regions of the South Caucasus. They influenced the formation of personalities with a democratic spirit. Many of the Azerbaijani graduates of the seminary became outstanding figures in science, education, and culture, and occupied a special place in the history of Azerbaijan.

**Keywords:** Iravan Teachers' Seminary, Azerbaijani educational history, enlightenment movement, democratic ideas, teaching staff, Azerbaijani language, pedagogical thought, Azerbaijani intellectuals.

**To cite this article:** Jabrayilov I. (2022). The activities of Iravan Teachers' Seminary and its contributions to Azerbaijan education. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 165-176.
**Article history:** received – 02.07.2022; accepted – 05.08.2022.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ ONUN AZƏRBAYCAN TƏHSİLİNƏ VERDİYİ TÖHFƏLƏR

**İntiqam Cəbrayılov**

Azərbaycan Respublikasının Təhsil İnstitutu,
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri,
pedaqogika üzrə elmlər doktoru, professor
E-mail: intiqamcebrayılov@gmail.com
https://orcid.org/0000-0003-2437-5926

**Annotasiya.** Məqalədə İrəvan Müəllimlər Seminariyasının yarandığı tarixi şərait təhlil olunur, onun yaranması, fəaliyyəti, Azərbaycan təhsil tarixində yeri və rolu məsələlərindən bəhs edilir. Elmi tədqiqatlara, mənbələrə əsaslanaraq, seminariyada təhsilin məzmunu, azərbaycanlı müəllimlərin fəaliyyəti və tələbələrin təhsil prosesində iştirakı, onların maarifçilik istiqamətində gördükləri işlər barədə məlumat verilir. XIX əsrin ikinci yarısında yaranmış İrəvan Müəllimlər Seminariyası bu bölgədə maarifçiliyin inkişafında böyük rol oynamışdır. Seminariyanın məzunları Cənubi Qafqazın müxtəlif regionlarında ibtidai məktəblərdə müəllimlik etmiş, geniş dünyagörüşünə malik ziyalılar idi. Onlar Azərbaycanda demokratik ruhlu şəxsiyyətlərin formalaşmasına təsir göstərmişlər. Seminariyanın azərbaycanlı məzunlarının bir çoxu sonralar görkəmli elm, təhsil, mədəniyyət xadimləri olmuş, Azərbaycan tarixində özlərinə məxsus yer tutmuşlar.

**Açar sözlər:** İrəvan Müəllimlər Seminariyası, Azərbaycan təhsil tarixi, maarifçilik hərəkatı, demokratik ideyalar, müəllim kadrları, Azərbaycan dili, pedaqoji fikir, Azərbaycan ziyalıları.

**Məqaləyə istinad:** Cəbrayılov İ. (2022). İrəvan Müəllimlər Seminariyası və onun Azərbaycan təhsilinə verdiyi töhfələr. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 165-176.
**Məqalə tarixçəsi:** göndərilib – 04.07.2022; qəbul edilib – 05.08.2022.

## Giriş / Introduction

Hər bir xalqın, cəmiyyətin inkişafında onun təhsil ənənələrinin, maarifpərvər və maarifçilik mövqeyinin böyük rolu vardır, çünki cəmiyyəti yaşadan, onun inkişafına təkan verən ideyalar, ilk növbədə, təhsil müəssisələrində aşılanır, müxtəlif sahələr, istiqamətlər üzrə mütəxəssislər burada yetişir və həmin kadrların fəaliyyəti yalnız yaşadıqları kiçik sosial mühitdə deyil, bütövlükdə cəmiyyətdə hərəkətverici qüvvəyə çevrilir. Müxtəlif tarixi dövrlərdə fərqli ideologiyaların hakim olmasına baxmayaraq, qazanılmış biliklər cəmiyyətin həyatında müəyyən təsir gücünə malik olmuş, insanları yaşamaq uğrunda mübarizəyə səsləmişdir. Bu baxımdan, Azərbaycan təhsil tarixinin XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərinə aid olan dövrü bütövlükdə Vətən tarixində xüsusi mərhələ təşkil edir. Elmi ədəbiyyatlarda bu dövr həm də maarifçilik hərəkatının geniş vüsət aldığı, seminariyaların, gimnaziyaların, yeni tipli məktəblərin yarandığı dövr kimi səciyyələnir.

## Əsas hissə / Main Part

Tarixi mənbələr təsdiq edir ki, Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra burada yeni idarəçilik sistemi yarandı və bu sistem müstəmləkəçi xarakter daşıyırdı. Yeni yaradılan məktəblərdə təhsilin məzmunu da yeni sistemin ideologiyasına uyğun formalaşdırılırdı. Çarizm öz siyasətini həyata keçirməyə qadir olan kadrların hazırlanması məqsədini qarşıya qoymuşdu. XIX yüzillikdə Cənubi Qafqazda baş verən hadisə və proseslərlə bağlı sənədlərdə, çara ünvanlanan məktublarda ifadə olunan fikirlər də bunu təsdiqləyir. Məsələn, admiral Mordvinovun hələ 1816-cı il, iyunun 19-da imperiyanın mərkəzi hökumətinə ünvanladığı müraciətinə diqqət edək. O yazırdı: “Belə xalqları silah gücü ilə, həmişəlik ram etmək mümkün deyil. Təhsilli xalqa nisbətən, savadsız, dəliqanlı xalqı idarə etmək üçün ona ehtiyac hiss etdiyi bəzi şeyləri vermək gərəkdir. Bu xalqlarda yeni arzular, yeni ehtiyaclar, yeni adətlər yaratmaq, onları bizim təsəvvürümüzə, zövqümüzə, ehtiyaclarımıza yaxınlaşdırmaq vacibdir. İlk növbədə isə bizim məktəbləri Cənubi Qafqaz şəhərlərinə aparıb çıxarmaq lazımdır. O vaxt nəinki onlarla dostlaşacağıq, həm də daimi düşmənçiliyi artırmağa səbəb olan süngü və mərmilərimizin heç bir vaxt çatmadığı sərvətli dağları təpələrinə qədər fəth edəcəyik. Bu yerlərin maarifinə 100 min manat pul xərcləməklə, sərhədləri qorumaqda böyük ordunu saxlamağa sərf olunan milyonlarla manata qənaət edilər” [Qəza məktəbləri, https://az.wikipedia.org/wiki/].

Göründüyü kimi, burada, əslində, işğala məruz qalmış xalqın –azərbaycan-

lıların heysiyyətinə toxunulur, xalqa qarşı alçaldıcı ifadələr işlədilir, onu fəth etmək yolları təklif olunur.

Həmin məktəblərdə Azərbaycan dilində təhsil almaq imkanının olmaması, buna qarşı ciddi maneələrin yaradılması millətin inkişafına da mənfi təsir göstərirdi, lakin bu çətinliklərə baxmayaraq, Azərbaycanın milli mədəniyyəti inkişaf edir, maarifçi ziyalılar nəsli yetişirdi.

Ümumiyyətlə, tarixən İrəvanda elmə, təhsilə, ədəbiyyata böyük maraq olmuşdur. Hələ İrəvan Müəllimlər Seminariyasının yaranmasından əvvəlki dövrlərdə bu şəhər Şərq dünyasının böyük mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdı. İrəvan gəncləri ədəbiyyatla, poeziya ilə çox ciddi məşğul olurdular. Onlar Azərbaycan və bütövlükdə Şərq ədəbiyyatının, poetik fikrinin görkəmli nümayəndələrinin, o cümlədən Nizami, Xaqani və başqa klassiklərin əsərlərini əzbər bilir, onları təhlil etməyi bacarırdılar.

Əlbəttə, o zaman Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvanda da məscidlərin nəzdində mollaxanalar, mədrəsələr fəaliyyət göstərmiş və burada da milli təfəkkürlü insanlar, müdrik şəxsiyyətlər yetişmişdir.

XIX yüzilliyin əvvəllərində çar Rusiyası Cənubi Qafqazı işğal etdikdən sonra bu bölgənin idarəçilik sistemi dəyişdi, o cümlədən təhsilin idarə olunması məsələləri ilə bağlı qərarlar qəbul edildi. Rusiya Maarif Nazirliyinin 1829-cu il, 2 avqust tarixli qərarı ilə Cənubi Qafqazda qəza məktəblərinin yaradılmasına başlandı. İrəvanda qəza məktəblərinin yaranması 1831-ci ilin mart-oktyabr aylarında nəzərdə tutulmuşdu, lakin bu proses bir qədər ləngidi və məktəb 1832-ci il, yanvar ayının 14-də açıldı. İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziya kimi fəaliyyət göstərməyə başladı. Bu progimnaziya əvvəl dörd sinifli, sonra isə beş sinifli olmuşdur. Burada azərbaycanlılardan başqa ruslar, ermənilər, yəhudilər və almanlar da təhsil alırdılar [Cəfərov C., 2017].

Qeyd etməliyik ki, İrəvan maarifçilik mühiti ilə bağlı Azərbaycanda bir sıra elmi araşdırmalar aparılmışdır. Bu tədqiqatlar pedaqogika, təhsil tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan H.M.Əhmədov, F.A.Rüstəmov, H.B.Bayramov, Ə.M.Zeynalov, R.L.Hüseynzadə, C.Ə.Cəfərov, C.V.Allahverdiyev və başqalarının araşdırmalarını qeyd edə bilərik. İlk dəfə akademik H.M.Əhmədov İrəvan təhsil mühitini araşdırarkən bu bölgəni Qərbi Azərbaycan kimi göstərmiş və bu anlayışın daha geniş bir ərazini əhatə etdiyini, İrəvan maarifçiliyinin təsir dairəsini əsaslandırmışdır [Əhmədov H., 2012].

Elmi araşdırmalar göstərir ki, XIX yüzilliyin ikinci yarısında Cənubi Qafqazda yeni tipli məktəblər şəbəkəsinin genişlənməsi, seminariya və gimnaziyaların yaradılması bölgədə maarifçilik mühitinin inkişafında mühüm rol oynadı. Bu barədə Ağayev Ə., Bəşirov V., Əhmədov H., Mərdanov M. və Mustafa Nazimin tədqiqatlarında geniş araşdırmalar aparılmışdır.

Bu dövrdə yaradılmış yeni tipli təhsil müəssisələrindən biri də İrəvan Müəllimlər Seminariyası idi. Bu seminariya "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında" Rusiya imperiyası Dövlət Şurasının 1880-ci il, 20 oktyabr tarixli qərarı əsasında yaradılmışdı [Tsarst vovaniye qosudarya. Polnoye sobraniye Zakonov Rossiyskoy İmperii].

1881-ci il, noyabrın 8-də İrəvan Müəllimlər Seminariyasının açılışı oldu və seminariya fəaliyyətə başladı. Bu seminariya açılarkən təhsilalanların sayı 42 nəfər olmuşdur. Fəaliyyətə başladığı dövrdən 1914-cü ilədək olan müddətdə seminariyanı 63 nəfər, 1915-ci ildə isə 22 nəfər azərbaycanlı bitirmişdi. Seminariyanın nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Tələbələr pedaqoji təcrübəni burada keçirdilər. Mövcud əsasnaməyə görə, seminariyada yalnız oğlanlar təhsil ala bilərdilər. Tədqiqatlar göstərir ki, Yakob Stepanoviç Şuşevski ilk direktor təyin edilmiş, M.Q.Qambarov, M.B.Qazızadə, Mixail Klepov və başqaları isə müəllim kimi fəaliyyətə başlamışlar. Elmi araşdırmalardan aydın olur ki, seminariya əvvəlcə əlverişli şəraiti olmayan və illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşirdi. 1905-ci ildə isə seminariya İrəvan şəhərindəki Daşlı küçədə yerləşən üç mərtəbəli binaya köçürülür. Həmin bina sonralar Xalq Təsərrüfatı İnstitutuna verildi [Allahverdiyev C., 2022; Zeynalov Ə., 2011].

Seminariyada digər millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdılar. Burada təhsil alan azərbaycanlılar arasında İrəvandan başqa Bakıdan, Naxçıvandan, Dağıstandan, Tiflisdən və digər yerlərdən gələnlər də var idi [Cəfərov C., 2017].

Aparılmış tədqiqatlarda seminariya yaradılarkən burada Azərbaycan bölməsinin də təşkil olunması barədə məlumatlara rast gəlinməyib, lakin digər fənlərlə yanaşı (rus dili, hesab, həndəsə, tarix, coğrafiya, musiqi və s.) burada şəriət dərsləri və Azərbaycan dili fənninin də tədris olunması, bu fənlərin ştat cədvəli ilə bağlı məlumatlar vardır [Tsarstvovaniye qosudarya. Polnoye sobraniye Zaкonov Rossiyskoy İmperii]. Araşdırmalar göstərir ki, 1883-cü ildən etibarən uzun müddət Axund Məmmədbağır Qazızadə də (tam adı: Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadə) burada Azərbaycan dili fənnindən və ilahiyyatdan (şəriətdən) dərs demişdir.

A.M.Qazızadə 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmiş və elmi biliklərə dərindən yiyələnmiş müəllim kimi tanınmışdır. XIX əsrin sonu –XX əsrin əvvəllərində A.M.Qazızadə seminariyada Azərbaycan bölməsinə rəhbərlik etmişdir. O, seminariyada təhsil alanlar üçün "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Qeyd edək ki, bu dərsliyi İrəvan Müəllimlər Seminariyasının bir neçə əməkdaşı birlikdə hazırlamış və 1911-ci ildə Tiflisdə, Azərbaycan dilində nəşr etdirmişlər.

İrəvan Müəllimlər Seminariyası ibtidai məktəblər üçün Azərbaycan dili müəl-

limləri hazırlasa da, həmin müəllimlərin əksər hallarda Azərbaycan dili müəllimi kimi işləmələrinə icazə verilmirdi. XX əsrin əvvəllərində mədəni-maarif cəmiyyətlərinin açdıqları kurslarda, Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müdirliyi kurslarında, Yelizavetpol mədrəsəsində və H.Z.Tağıyevin Qızlar məktəbində Azərbaycan dili müəllimləri hazırlanırdı. Məhz bu kursları və məktəbləri bitirənlər Azərbaycan dili müəllimi kimi fəaliyyətə başlaya bilərdilər. Qeyd edək ki, 1915-ci ildə açılmış qadın pedaqoji kurslarında da Azərbaycan dili müəllimlərinin hazırlığı həyata keçirilirdi.

Tarixdən məlumdur ki, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası İrəvan Müəllimlər Seminariyasından əvvəl yaranmışdır. Rusiya imperatoru II Aleksandrın 1875-ci il, 08 aprel tarixli fərmanı ilə təsis edilən və Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyası bütövlükdə Cənubi Qafqaz üzrə təşkil edilmişdi. Burada təhsil alanlar ibtidai məktəblərdə müəllim kimi fəaliyyət göstərə bilərdilər [Uchitelskiye seminarii. Kavkazskiy kalendar na 1890 q]. Ümumiyyətlə, bu seminariyanın açılmasında məqsəd ibtidai məktəblər üçün pedaqoji kadrlar hazırlamaq idi. Seminariyanın Azərbaycan bölməsi isə 1879-cu ildə yaradılmışdır.

İrəvan Müəllimlər Seminariyasının direktoru olmuş Mixail Alekseyeviç Miropiyev (1898–1902) hər iki seminariyanın fəaliyyətini yüksək qiymətləndirirdi. O, İrəvan Müəllimlər Seminariyasını “Zaqafqaziya Müəllimlər Seminariyasının kiçik bacısı” adlandırmışdı.

İrəvan Müəllimlər Seminariyası Zaqafqaziya Müəllimlər Seminariyasından 5 il sonra yaranmasına baxmayaraq, qısa müddətdə böyük işlər gördü. Seminariyanın İrəvanda yaradılması, İrəvan bölgəsində yaşayan əhalinin böyük əksəriyyətinin azərbaycanlı olması burada xalqın maariflənməsi, Azərbaycanın böyük ziyalılarının, maarifçilərinin yetişməsi üçün əlverişli zəmin yaratmışdı. Bu seminariyada ilk pedaqoji təhsillərini almış və sonradan görkəmli maarifçilər kimi tanınmış Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Şəfiyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski və başqaları Azərbaycan pedaqoji fikir tarixinin görkəmli nümayəndələri sırasındadırlar.

Tədqiqatlar göstərir ki, İrəvan Müəllimlər Seminariyası böyük hazırlıq qrupu və birinci siniflə fəaliyyətə başlamışdı. Hər il seminariyanın hazırlıq qrupuna və birinci sinfinə qəbul elan edilirdi. Birbaşa ikinci və üçüncü siniflərə qəbula icazə verilmirdi. Müxtəlif millətlərin nümayəndələrinin təhsil aldığı İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur [Hüseynzadə R. https://www. aqra. az/az/ir%].

Bu seminariyanı 1884–1895-ci illərdə 123 nəfər tələbə bitirmişdir. Bunlardan 25 nəfəri azərbaycanlı, 10 nəfəri gürcü, 8 nəfəri isə rus və digər xalqların

nümayəndələri idi. XX yüzilliyin əvvəllərində (1905–1910-cu illərdə) bu seminariyada təhsil alan 20 azərbaycanlı tələbə üçün təqaüd ayrıldığı məlumdur [Mustafa Nazim. https://iravan.preslib.az/elm_ve_tehsil.html; Aliev E.S. http://clio-caucasus.org/ assets/files/]. Bu, Azərbaycanda müəllim çatışmazlığının aradan qaldırılması ilə bağlı idi.

Qeyd edək ki, seminariyada 1915–1918-ci illərdə 64 nəfər (1915/1916-cı tədris ilində 19, 1916/1917-ci tədris ilində 22, 1917/1918-ci tədris ilində 23 nəfər) azərbaycanlı təhsil almışdır [Aliev E.S. http://clio-caucasus.org/ assets/files/]. Bütövlükdə seminariyanın fəaliyyəti dövründə 149 nəfər azərbaycanlı bu təhsil müəssisəsinin məzunu olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin qeyd etdiyi kimi, İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılsa da, onun 40 ilə yaxın müddətdə hazırladığı, müasir dünyagörüşünə və düşüncə tərzinə malik, yüksək ixtisaslı milli müəllim kadrları pedaqoji fikir salnaməsinə yaddaqalan səhifələr yazmışdır. Bu seminariya İrəvan mahalında azərbaycanlıların ədəbi-ictimai, elmi-mədəni həyatı, ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmişdir [İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı., 2021].

Araşdırmalar göstərir ki, çar Rusiyasının XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində təhsil sahəsində islahat aparmaq niyyəti həqiqi mənada əhalinin maariflənməsinə istiqamətlənməmişdi, çünki əhali maarifləndikcə, yeni təhsil müəssisələri yarandıqca ölkədə demokratik qüvvələrin formalaşması, yeni demokratik ideyaların meydana çıxması üçün əlverişli zəmin yaranırdı. Bu qüvvələr imperiyada mütləq monarxiya idarəçilik sisteminə qarşı çıxır, ədalət, xalqın azadlığı uğrunda mübarizə aparır, cəmiyyətdə humanist ideالların bərqərar olmasına çalışırdılar. Bu mübarizədə qeyri-rusların, türklərin, müsəlmanların fəallaşması mütləqiyyəti çox narahat edirdi, çünki türklərin, müsəlmanların sayca çoxluğu, onların milli özünüdərkə qayıdışı, soy-köklərinə, adət-ənənələrinə, torpağa, yurda bağlılığı çarizmi təşvişə salırdı. Onların təhsil almaları, milli şüurunun oyanması imperiyanın hakim dairələrini qıcıqlandırır, mütləqiyyət monarxiyasının maraqlarına uyğun gəlmirdi.

Araşdırmalardan aydın olur ki, çar hökumətinin Cənubi Qafqazda təhsillə bağlı atdığı hər bir addımın, həyata keçirmək istədiyi islahatların mahiyyətində həm də zəmanənin tələbindən doğan məcburiyyət olmuşdur, çünki Rusiya işğal etdiyi bölgələrdə öz mövqeyini möhkəmləndirmək üçün dayaq məntəqələrini yaratmaq, yerli əhalinin içərisindən çıxmış kadrlar yetişdirmək, onların vasitəsi ilə öz siyasətini daha rahatlıqla yeritməkdə maraqlı idi. Eyni zamanda, yerli əhalini kənd təsərrüfatı peşələrinə yiyələndirmək adı altında təhsilə cəlb etmək, onların

milli ruhunu məhv etmək, onlardan yalnız işçi qüvvəsi kimi istifadə etməklə daha məkrli planlarını həyata keçirməyə çalışırdı. Ona görə də Cənubi Qafqazda yaradılan yeni təhsil müəssisələrində, o cümlədən İrəvan Müəllimlər Seminariyasında ana dilinin – Azərbaycan dilinin tədrisinə razılıq verilməsi də uzunmüddətli mübarizənin nəticəsində mümkün olmuşdu. Çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq, açılan təhsil müəssisələrində, o cümlədən İrəvan Müəllimlər Seminariyasında milli ruhlu şəxsiyyətlər yetişir, formalaşırdı. Onlar öz fəaliyyətlərində milli maarifçilik ideyalarının yayılmasında, xalqın milli şüurunun oyanmasında, milli ayrı-seçkiliyə, milli ədavəti qızışdıranlara qarşı mübarizədə böyük rol oynadılar.

Cəmiyyətdə demokratik ideyaların getdikcə güclənməsi çarizm üçün təhlükəli hesab olunurdu. Çar hökuməti 26 fevral, 1905-ci ildə Qafqaz canişinlik sistemini bərpa etməklə bu bölgədə hərbi-polis rejimini daha da möhkəmləndirməyə çalışırdı. Həmin dövrdə general-adyutant, qraf İ.İ.Vorontsov-Daşkov Qafqaz canişini vəzifəsinə təyin olundu. Beləliklə, təqib və cəza mexanizmləri daha da gücləndirildi. Bütün bunlara baxmayaraq, belə ağır ictimai-siyasi mühitdə İrəvan Müəllimlər Seminariyası öz fəaliyyətini davam etdirirdi.

Elmi araşdırmalar nəticəsində məlum oldu ki, Azərbaycanın böyük ədibi, mütəfəkkiri, "Molla Nəsrəddin" jurnalının yaradıcısı və baş redaktoru Cəlil Məmmədquluzadə də İrəvanda olmuş (1906-cı il, iyun), İrəvan Müəllimlər Seminariyasının müəllim və tələbə kollektivi ilə, burada yaşayan azərbaycanlı ziyalılarla görüşmüş, maarifçiliyin inkişafı məsələləri ilə bağlı müzakirələr aparmışlar. Bu görüş "Molla Nəsrəddin" jurnalının İrəvanda təbliği işində və nəticə etibarilə, maarifçiliyin inkişafında əhəmiyyətli dərəcədə rol oynamışdır [Cəfərov C., 2017].

Tədqiqatlar göstərir ki, Birinci Dünya Müharibəsi illərində, 1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Armavirə köçürülmüş və Rusiya imperiyasının süqutundan bir müddət sonra da (1918-ci il, avqustun 6-na qədər) orada fəaliyyət göstərmişdir [Səfərov R. http://milliarxiv.gov.az/ru/milli-tehsil-tariximiz-de-izi-qalan-tedris-ocaqlari-qori-ve-i-revan-muellimlerseminariyalarinin-milli-tehsil-tariximizdeki-yeri-ve-rolu-haqqinda; Aliev E.S., http://clio-caucasus.org/assets/files/].

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım nəticəsində seminariya fəaliyyətini dayandırmışdır. Hətta müəllimlərin və tələbələrin də bir hissəsi soyqırıma məruz qalmışdı. Onlardan sağ qalanları doğma yurdlarını tərk etməyə, Türkiyə və Azərbaycana sığınmağa məcbur olmuşdular. Çox təəssüf ki, çar Rusiyasının xarabalıqlarında yaranan sovet Rusiyası da erməniləri dəstəkləmiş və azərbaycanlıların qədim ata-baba torpaqlarında yaradılmış erməni dövlətini hər zaman himayə etmişdir.

Qeyd etməliyik ki, seminariya sonralar öz adı ilə bərpa olunmasa da, 1924-cü ildə onun xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. 1925-ci ildə isə bu texnikuma Nəriman Nərimanovun adı verildi. Bu təhsil müəssisəsi də azərbaycanlı ziyalıların yetişməsində mühüm rol oynadı. Qeyd edək ki, dünya şöhrətli Azərbaycan alimi, akademik Yusif Məmmədəliyev gənc yaşlarında (1928–1930-cu illər) burada müəllim işləmişdir. 1949-cu ildə Qərbi Azərbaycanda – doğma yurdlarında yaşayan azərbaycanlılar öz dədə-baba torpaqlarından (indiki Ermənistandan) deportasiya olunarkən həmin texnikum da Azərbaycanın Xanlar rayonuna köçürüldü və 1972-ci ilə qədər orada fəaliyyət göstərdi.

Ümumiyyətlə, seminariya öz adı ilə – İrəvan Müəllimlər Seminariyası adı ilə 37 il (1881–1918 illər) fəaliyyət göstərmiş və bu müddət ərzində Azərbaycan təhsil tarixində silinməz izlər qoymuşdur. İlk növbədə, İrəvanda azərbaycanlılardan ibarət maarifçilər mühiti formalaşmışdı. Görkəmli maarif xadimləri, ziyalılar yetişmiş və maarifçilik missiyalarını ləyaqətlə davam etdirmişlər. Bu seminariyanın formalaşdırdığı maarifçilik mühiti, əslində, maarifçilik hərəkatında mühüm rol oynamışdır. Dünyəvi təhsil almış seminaristlər milli ənənələri qorumaqla yanaşı, Azərbaycan mədəniyyətinin dünyaya çatdırılması, bəşəri dəyərlərə yiyələnməyin əsas yolunun milli dəyərlərdən keçdiyinin əsaslandırılmasında və bu sahədə praktik işlər görməklə Azərbaycan mədəniyyətinə, təhsil tarixinə böyük töhfələr vermişlər. O zaman yaranan bütün seminariyalarda təhsil ödənişli, pullu olsa da, bəzi tələbələr dövlət hesabına təhsil alırdılar. Birinci tədris ili üçün 210, sonrakı illərdə (ikinci və üçüncü tədris illərində) isə hər il 180 manat təhsil haqqı ödənilirdi [Zeynalov Ə., 2011].

Mənbələrdə seminariyanın müsəlman şöbəsinin müdiri vəzifəsində işləmiş Məhəmmədbağır Qazızadə, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski və Cəfər bəy Cəfərbəyovun adları qeyd edilir. Onların Azərbaycan pedaqoji fikir tarixində, maarifçilik hərəkatının inkişafında, azərbaycanlı ziyalıların, maarifpərvərlərin yetişməsində böyük xidmətləri olmuşdur. Mənbələrdə şəriət müəllimi olan M.B.Qazızadənin həm də Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərməsi xüsusi qeyd edilmişdir. Məhz bu fəaliyyətin nəticəsi idi ki, İrəvan və Naxçıvan təhsil mühitində Əziz Əliyev, Mustafa Topçubaşov, Cabbar Məmmədzadə, Həmid bəy Xəlil oğlu Şahtaxtinski, İbadulla Muğanlinski və digər görkəmli ictimai, elm, mədəniyyət xadimləri, görkəmli ziyalılar yetişmişdir. Onların fəaliyyəti Azərbaycan tarixində, o cümlədən təhsil tarixində xüsusi yer tutur. Bu insanların bəziləri İrəvan Müəllimlər Seminariyasında təhsil almasalar da, seminariya məzunlarının işlədikləri məktəblərdə onlardan dərs almışlar. Bu da bütövlükdə təhsil mühitində İrəvan Müəllimlər Seminariyasının oynadığı rolu diqqətə çatdırmaq üçün əsaslı göstəricidir.

Mənbələrdən aydın olur ki, İrəvan Müəllimlər Seminariyasının məzunların-

dan Şəmsəddin bəy Mahmudbəyov İrəvan mahalının Uluxanlı kənd məktəbində müdir (1903–1917), Əhməd Həşimov Çobankərə kəndində, Şıxəlibəy Firudinbəyov, Mirzə Məhəmməd Axundov İrəvan məktəblərində, Tağı bəy Şəfiyev Naxçıvanın Nehrəm kəndində müəllim işləmişlər [Cəfərov C., 2017].

## Nəticə / Conclusion

Adlarını qeyd etdiyimiz görkəmli şəxsiyyətlərin hər birinin həyatı Azərbaycan gəncləri üçün örnək olmalıdır. Xalqımızın milli ruhunun, mentalitetinin qorunması belə şəxsiyyətlərin həyat və fəaliyyəti, onların xidmətləri, cəmiyyətə verdikləri töhfələrlə sıx bağlıdır. Ona görə də İrəvan Müəllimlər Seminariyasında təhsil alan, işləyən və ümumiyyətlə, bu təhsil mühitinin təsiri ilə formalaşan görkəmli şəxsiyyətlərin həyatı, yaradıcılıq irsi bir dəyər xəzinəsidir. Bu dəyər xəzinəsi böyüməkdə olan nəsillər üçün milli mücadilə, milli özünüdərk məktəbi, Vətən, xalq, dövlət və dövlətçilik ruhunu aşılayan zəngin mənbədir. Bu şəxsiyyətlərin hər birinin həyatı və fəaliyyəti ayrıca tədqiqat mövzusu, o cümlədən pedaqoji tədqiqat mövzusu ola bilər.

Ümumiyyətlə, İrəvan Müəllimlər Seminariyası Azərbaycan tarixinin, o cümlədən təhsil tarixinin ən şərəfli səhifələrindən biridir. Seminariya Azərbaycan xalqının milli maarifçilik hərəkatının inkişafında böyük rol oynamışdır. Xalqın milli mənlik şüurunun formalaşmasında, təhsil, elm və ədəbiyyatın inkişafında seminariyanın azərbaycanlı müəllimlərinin, məzunlarının göstərdikləri xidmətlər çox əhəmiyyətli olmuşdur. Müasir dövrdə İrəvan Müəllimlər Seminariyasının Azərbaycan cəmiyyətinə verdiyi töhfələr elmi-pedaqoji baxımdan daha dərindən araşdırılmalı, həmin dövrün pedaqoji fikir tarixi sistemli şəkildə təhlil və tədris olunmalıdır.

**Məqalənin aktuallığı.** Azərbaycanın təhsil tarixi, pedaqoji fikir tarixi bütövlükdə Vətən tarixinin tərkib hissəsidir. Bu istiqamətdə elmi araşdırmaların aparılması təhsil və pedaqoji fikir tariximizin daha dərindən öyrənilməsinə xidmət edir. Bu problem bu gün də aktualdır və Azərbaycan təhsil tarixində İrəvan Müəllimlər Seminariyasının yeri xüsusi qeyd olunur.

**Məqalənin elmi yeniliyi**. Məqalədə Azərbaycan təhsil tarixində İrəvan Müəllimlər Seminariyasının yeri, rolu araşdırılmış və onun təhsil tariximizə, Azərbaycan cəmiyyətinə verdiyi töhfələr tədqiq olunmuşdur. Qeyd olunur ki, İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqlarını təmin etmək üçün yaradılsa da, onun 40 ilə yaxın müddətdə hazırladığı, müasir dünyagörüşünə və düşüncə tərzinə malik, yüksək ixtisaslı milli müəllim kadrları pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışlar.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış ideyalar, irəli sürülən fikirlər, təklif olunan tövsiyələr Azərbaycan təhsili, pedaqogika tarixi problemlərinin sistemli şəkildə izah olunmasına istiqamət verir. Bu fikirlər tədris resurslarının hazırlanması üçün də əhəmiyyətlidir və ali, orta-ixtisas məktəblərində tətbiq oluna bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Allahverdiyev C. (2022). Cənubi Qafqazda dünyəvi təhsil verən məktəb – İrəvan Müəllimlər Seminariyası. "Yeni Azərbaycan"qəzeti, 27 yanvar.
2. Ağayev Ə., Rzayev V. (2004). Güney Qafqaz xalqlarının pedaqoji əlaqələr tarixindən. Bakı, "Təhsil", 136 s.
3. Bayramov H. (2015). Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması. Bakı, "Elm", 367 s.
4. Bəşirov V. (2008). Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı: 1870–1920-ci illər. Bakı, "Oka-Ofset", 102 s.
5. Cəfərov C. (2017). İrəvanda milli maarifçilik mühiti. Bakı, "Şərq-Qərb", 440 s.
6. Əhmədov H. (2012). Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər. Bakı, "Maarif", 542 s.
7. Əhmədov H. (2001). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, "Elm", 320 s.
8. Əhmədov H. (2006). XIX əsr Azərbaycan məktəbi. (III nəşr). Bakı, "Təhsil", 580 s.
9. Əhmədov H. (2010). Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, "Elm", 800 s.
10. Hüseynzadə R. İrəvan pedaqoji mühiti: İrəvan kişi gimnaziyası, İrəvan müəllimlər seminariyası, İrəvan qız gimnaziyası. https://www.aqra.az/ir%
11. İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 dekabr, 2021. president. az/articles/ view/55116
12. Qəza məktəbləri. https://az.wikipedia.org/wiki/
13. Mərdanov M. (2011). Azərbaycan təhsil tarixi. 4 cilddə. I cild. Bakı, "Təhsil", 296 s.
14. Mustafa N. İrəvan şəhəri. Elm və təhsil. https://iravan.preslib. az/elm_ve_tehsil.html

15. Rüstəmov F. (2022). Milli müəllim kadrları hazırlayan təhsil ocağı. “Azərbaycan müəllimi” qəzeti, 20 yanvar.
16. Rüstəmov F. (2022). Milli müəllim kadrları hazırlayan təhsil ocağı. “Azərbaycan müəllimi” qəzeti, 07 yanvar.
17. Sarıyeva İ. (2016). Milli təhsil tariximizin əsası olan seminariyalar. Azərbaycançılıq ideologiyasının yayılmasında onların rolu. II yazı, “Bakı xəbər” qəzeti, 5–7 noyabr, № 201. s.15.
18. Səfərov R. Qori və İrəvan müəllimlər seminariyalarının milli təhsil tariximizdəki yeri və rolu haqqında. http://milliarxiv.gov.az/ru/milli-tehsil-tariximizde -izi-qalan-tedris-ocaqlari-qori-ve-i-revan-muellimler seminariyalarinin-milli-tehsil-tariximizdeki-yeri-ve-rolu-haqqinda
19. Zeynalov Ə. (2011). İrəvan məktəbləri. Bakı, “Mütərcim”, 56 s.
20. Aliyev E.S. Irevan: sostoyaniye v oblasti prosvesheniya v XIX – nachale XX vv. http://clio-caucasus.org/assets/files/
21. Izvlecheniye iz otcheta popechitelya Kavkazskogo Uchebnago Okruga o chisle uchashixsya, s raspredeleniyem po uchebnim zavedeniyam, natsional'nostyam, veroispovedeniyam i sosloviyam. Kavkazskiy kalendar. 1891. I otdel. s. 255. [elektron mənbədə s. 143]. http://web2.anl. az:81/read/page.php?bibid=389753&pno=143
22. Kuzmenko I.A. Professional'no pedagogicheskaya napravlennost obucheniya budushix uchiteley v dorevolyutsionnoy uchitel'skoy seminarii. https://www.dissercat.com/content/professionalno-pedagogicheskaya
23. Uchitel'skaya seminariya. Kavkazskiy kalendar na 1890 g. https://viewer.rusneb.ru/ru
24. Tsarstvovaniye gosudarya. Polnoye sobraniye Zakonov Rossiyskoy Imperii. Sobraniye vtoroye. Tom LV (55). Otdeleniye pervoye. S 19 fevral'ya 1880 po 28 fevral'ya 1881. Sankt-Peterburg. 1884. 822 s., s. 630.
25. Shtati i tabeli. Shtat Uchitel'skoy Seminarii v Erivanskoy qubernii. Polnoye sobraniye. Zakonov Rossiyskoy Imperii. Sobraniye vtoroye. Tom LV (55). 822 s. Otdeleniye vtoroye. Sankt-Peterburg. 1884. s.476